**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№276/4** **26 may 2016-cı il**

## Sərbəst auditorlar və auditor təşkilatlarının 2015-ci ilin yekunu üzrə təqdim edilmiş hesabatlara dair icmalın hazırlanması barədə

Auditorlar Palatasının 2016–cı il üzrə iş planının 1.5-ci "Sərbəst auditorların və auditor təşkilatlarının 2015-ci ilin yekunu üzrə təqdim edilmiş hesabatlara dair icmalın hazırlanması" bəndinə uyğun olaraq, Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış məruzəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2015-ci ilin yekunu üzrə təqdim edilmiş hesabatlara dair icmalın hazırlanması" barədə məruzə nəzərə alınsın (əlavə olunur);
2. 2015-ci ilin yekunu üzrə hesabatı gec təqdim edən auditor təşkilatı – "Grant Thornton" MMC-nin Azərbaycan Respublikasındakı filialının rəhbərinə (direktor – Farouk Mohamed) və sərbəst auditorlar – Həsənov Ülvi Dilqəm oğluna, Qurbanlı Ziya Tofiq oğluna və Sadıqov Musa Sərxan oğluna ciddi xəbərdarlıq edilsin;
3. Analitik informasiya və təhlil şöbəsinin müdiri R.Cəfərliyə və sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, auditor xidmətinin həcminin azalması səbəblərini araşdırsınlar və bu sahədə vəziyyətin yaxşılaşdırılması istiqamətində təcili tədbirlərin görülməsi məqsədilə öz təkliflərini təqdim etsinlər;
4. Məcburi auditdən keçmə faizinin aşağı olması ilə bağlı inzibati məsuliyyətin tətbiqi mexanizmlərinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilsin;
5. Auditə dair maarifləndirmə, təbliğat-informasiya işini gücləndirmək və zəruri məlumatları KİV-də işıqlandırmaq məqsədilə, şəffaflığın təmin olunmasında və auditin mövcud problemləri və inkişaf istiqamətləri mövzularında mətbuatda mütəmadi olaraq materiallar dərc etdirilməsi işləri davam etdirilsin;
6. Sərbəst auditorlara və auditor təşkilatlarının rəhbərlərinə tapşırılsın ki, bu qərardan irəli gələn və onlara öhdəlik yaradan vəzifələrin icrasına xüsusi diqqət yetirsinlər və bu istiqamətdə zəruri tədbirlərin görülməsini təmin etsinlər;
7. Bu qərarın və hazırlanmış icmalın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**